


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 151 (24.038)

12 avqust 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Bağ Evləri yaşayış-istirahət məntəqəsinin təqdimatı olub





Şəhər və qəsəbələrdə yaşayan əhalinin istirahətinin səmərəli təşkili, yaşıllıqların artırılması, torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün bağ təsərrüfatının yaradılması və istifadəsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Uzunoba gölü ətrafında yerləşən 20 hektar istifadəsiz torpaq sahəsi 2019-cu ildən bağ təsərrüfatı yaradılması üçün vətəndaşların istifadəsinə ayrılmış,



ərazidə yeni Bağ Evləri yaşayış-istirahət məntəqəsi salınmışdır.

Avqustun 11-də Bağ Evləri yaşayış-istirahət məntəqəsinin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, bağ ərazilərinin təşkili ərazinin təbii-iqtisadi şəraiti, həmçinin mühəndis, nəqliyyat və sosial infrastrukturu nəzərə alınmaqla əlverişli hesab edilən, dövlət mülkiyyətində olan torpaq sahələri hesabına həyata keçirilir. Ərazidə nəqliyyat vasitələrinin hərəkətini asanlaşdırmaq üçün 3 kilometr asfalt yol çəkilmiş, 1080 metr piyada yolu salınmışdır. Yolun üzərində 17 su keçidi qoyulmuş, 180 metr su kanalı çəkilmiş, 2 körpü əsaslı təmir olunmuşdur. Eyni zamanda Uzunoba Su Anbarında bəndin üzərinə 1900 metr uzunluğunda asfalt örtük salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Yeni yaşayış-istirahət məntəqəsinin üstünlüyü ondan ibarətdir ki, həm Naxçıvan şəhərinə yaxındır, həm də Uzunoba Su Anbarının ətrafında yerləşir. Ərazinin havası təmiz, torpağı istifadəyə yararlıdır. Sovetlər Birliyi dövründə də burada bağ evləri yaradılmışdı. Lakin 1990-cı illərin acı nəticələri bu sahəyə də böyük zərbə vurdu, tikililər dağıdıldı və ərazi istifadəsiz vəziyyətə salındı. Bu gün artıq ərazidə planlı şəkildə bağ evləri tikilib. Hər ev üçün torpaq sahəsinin ayrılması ailə təsərrüfatlarının inkişafına da kömək edəcəkdir.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizin inkişafının bir göstəricisi də istirahət zonalarının yaradılmasıdır. Bağ evləri də inkişafın göstəricisi kimi yaradılmış istirahət zonasıdır. Bundan sonra da Dövlət Şəhərsalma və Arxitektura Komitəsi müraciət edənləri qeydə almalı, bu ərazi ilə yanaşı, muxtar respublikanın digər yerlərində də modul ev tikdirmək istəyənlərin sifarişləri yerinə yetirilməlidir. İşlə yanaşı, insanların istirahəti də təşkil olunmalıdır. Artıq muxtar respublikanın ərazisində turistik ərazilər formalaşıb, hostel xidməti göstərilir. Modul evlər də turistik ərazilər üçün ideal variantdır. Ona görə də belə layihələr təbliğ olunmalıdır. Bu da muxtar respublikada turizmin daha keyfiyyətli inkişafına təsir göstərəcək, insanlar bu sahədə də öz ailə büdcələrini formalaşdıracaqlar. Çünki turistik ərazilərin yaradılması insanların məşğulluğunun təmin olunması deməkdir.



Yararsız ərazi abad yaşayış məntəqəsinə çevrilib ki, bu da insanların asudə vaxtlarının səmərəli təşkilinə imkan verəcəkdir. Bütün bunlar muxtar respublikada insan amilinə verilən dəyərin ifadəsidir.

Ali Məclisin Sədri bu işlərin görülməsində əməyi olanlara təşəkkürünü bildirmiş, mənzil sahiblərinin hər birinə xoş istirahət və rahat həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, ayrılmış torpaq sahələrində bağ təsərrüfatlarının yaradılması məqsədilə ilkin mərhələdə 30 modultipli evin tikintisi yekunlaşdırılmışdır ki, onlardan 20-si iki, 10-u isə üçotaqlıdır. Hər ev üçün ayrılmış torpaq sahəsi çəpərlənmiş və abadlaşdırılmış, su, kanalizasiya, elektrik xətləri çəkilmiş və digər lazımi infrastruktur yaradılmışdır. Artıq ərazidə 28 ailə bağ təsərrüfatı fəaliyyəti ilə məşğul olmaq üçün ev və torpaq sahəsi ilə təmin olunmuşdur. Ailələr onlar üçün ayrılmış torpaq sahələrində yaşıllaşdırma işləri aparmış, müxtəlif meyvə ağacları, bostan və tərəvəz bitkiləri əkmişlər.

Ali Məclisin Sədri ərazinin layihələndirilməsi və yeni bağ evlərinin tikilməsi, boş ərazilərdə yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

## Özünüməşğulluq proqramı çərçivəsində növbəti aktivlər təqdim edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti mərhələdə 66 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib. Bu ailələrin üzvlərindən 36 nəfərin hər birinə 2 baş iribuynuzlu, 13 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 6 nəfərə miniyerşumlayan aqreqat, 5 nəfərin hər birinə 10 yeşik arı ailəsi və arıçı ləvazimatları, 4 nəfərə otbiçən aqreqat, 2 nəfərə isə su motoru verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 30 nəfərini sağlamlıq imkanları məhdud olan, 4 nəfərini müharibə veteranı, 10 nəfərini şəhid ailəsi, 5 nəfərini nikahı pozulan, 1 nəfərini çoxuşaqlı ailənin üzvü olan, 3 nəfərini isə ailə başçısını itirənlər təşkil edib.

Sözügedən aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Nazir qeyd edib ki, bu günədək 5305 nəfər ailə üzvü olan 1142 ailənin özünüməşğulluğu təmin edilib və həmin ailələrə kənd təsərrüfatı, xidmət və istehsal sahələri üzrə aktivlər verilib.

Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev və Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru Samir Qasımov ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıblar.

Tədbirin davamında yeni aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Qeyd edək ki, bu mərhələdə təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirdiklərinə görə Şərur rayonunun Qarxun kənd sakini Afərin Allahverdiyeva və Şahbuz rayonunun Külüs kənd sakini Mehriban Quliyeva həvəsləndirmə tədbirlərinə cəlb edilib və bu məqsədlə onlara arpa-buğdaqıran aqreqat verilib.

Tədbirdə iştirak edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Cümə günü səhərin erkən çağında yolumu buz kimi sərin dağ havası, göz yaşı kimi dumduru, zümrüd bulaqları, al-əlvan gül-çiçəyi, təbii bitkiləri ilə cana məlhəm, ruha qida verən ucqar yaşayış məntəqəmizdən salıram. Avtomobilimiz Şahbuz şəhərinin yaraşıqlı, geniş, abad yollarıyla dağlar qoynunda yerləşən Gömür kəndinə doğru irəlilədikcə yolboyu seyr etdiyim gözəl, ürəkaçan mənzərələr illərdir, muxtar respublikamızda aparılan geniş quruculuq işlərinin müsbət nəticəsinin göstəricisi kimi göz oxşayır, könül açır. Budur, artıq Gömürə qalxan yolayrıcına çatırıq, maşın sürətlə yüksəkliyə qalxır. Yerlə göyün bu qədər yaxınlığının hiss olunduğu anda adama elə gəlir ki, sanki əlimi uzatsam buludlara çatar. Bu yaxınlıq get-gedə daha çox duyulur. Heyrətlənmək isə təbii ki, əsassız deyil. Çünki kənd dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşir...*

*Müasirləşən kəndlərimiz*

# Gömürdə bir gün: gördüklərim, etiraf etməyə borclu olduğum hisslər...





Çox çəkmir ki, ünvana yetişirik. Avtomobildən enirəm. Gözəl mənzərə ilə yanaşı, həm də havaların çox isti keçməsinə baxmayaraq, əsən sərin rüzgar ruhumu titrədir sanki. Ətrafdakı dağlar, dərələr, yarğanlar, yaşıllıqlar kəndə o qədər gözəl bir görünüş verir ki, göz baxdıqca baxmaq istəyir. Dağların zirvəsinə yaxın olan evlərə kənardan tamaşa edəndə bu evlərin orada necə bərqərar olduğu da adamı heyrətə gətirir...

Kəndin içində sakitlik hökm sürür, yaxınlıqda heç kim gözə dəymir. Bir neçə dəqiqə sonra yanımdan ötən, atların belində sahələrə yollanan bir neçə nəfərdən xəbər alıram ki, kənddə əkin-biçin işlərini həyata keçirmək üçün əli iş tutan hər kəs ərazilərə axışıb. Əsas dolanışıq yolları maldarlıq, heyvandarlıq olan gömürlülər biçin sahələrindən qışa ot tədarükünü də edirlər. Qısa ekskursiya zamanı əkin-biçin sahələrində işləyən zəhmət adamları da nəzərimdən yayınmır. Lap yaxınlıqda çalışan bir neçə kənd sakininə "işiniz irəli, məhsulunuz bərəkətli olsun", – deyib kənd mərkəzinə doğru irəliləyirəm.

Gömürdə ilk üz tutduğum ünvan burada ən yüksək və gözəl görüntüsü ilə gözoxşayan yerdə ucaldılmış müasirtipli kənd mərkəzi olur. Kəndin inzibati ərazi dairəsi üzrə nümayəndəsi ***Namiq Taroyev***lə söhbət zamanı bildirir ki, 2015-ci ildə istifadəyə verilən 2 mərtəbədən ibarət kənd mərkəzində yaradılan müasir iş şəraiti sakinlərin sosial problemlərinin qısa zamanda həllinə, onların asudə vaxtlarını səmərəli keçirmələrinə, müxtəlif tədbirlərdə iştiraklarına imkan verir. Müasir üslubda qurulan, gözoxşayan dizaynlı otaqlarda adam sanki kənddə olduğunu unudur, özünü şəhərdə hiss edir. Kənd mərkəzində bu gün dövlətimizin ən çox diqqət ayırdığı və qayğı göstərdiyi səhiyyə sahəsi üçün də əlverişli tibbi şərait yaradılıb. Belə ki, burada feldşer-mama məntəqəsi üçün otaqlar ayrılıb, məntəqədə ən müasir tibb avadanlıqlar quraşdırılıb və lazımi dərman preparatları ilə təmin edilib. Deyirlər, inam həyatın gücüdür, o olmadan heç bir uğur qazanmaq mümkün deyil. Kiməsə inam bəxş etmək, kiminsə inamını qazanmaq isə hər kəsə nəsib olan xoşbəxtlik deyil. Ələlxüsus da insan sağlamlığı ilə bağlı. Bu mənada, iki ilə yaxındır, məntəqənin müdiri vəzifəsində çalışan ***Lamiyə Ağayeva*** özünü xoşbəxt hiss edir. Çünki qısa zamanda gömürlülərin inamını qazanmağı bacarıb. Kənddə hər kəs ondan ağızdolusu danışır: – Lamiyə həkimi ümid yeri bilib hər zaman – gecə-gündüz, iş vaxtından sonra xəstələrimizə baxmağa çağırmışıq. Bircə dəfə bu adamın alnını qırışdırdığını görməmişik, hər zaman canla-başla xəstələrin köməyinə yetişib. Ona görə də bütün kənd camaatı ona etibar edir, güvənir.

Kənd mərkəzi ilə qoşa ucalan digər bina ucqarlarda təhsilin inkişafına dövlət dəstəyi nəticəsində elə həmin il istifadəyə verilən 144 yerlik məktəbdir. İki mərtəbədən ibarət olan məktəbdə 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, kompüter, şahmat otağı, kitabxana, hərbi kabinə, idman zalı və açıq idman qurğuları vardır. Məktəbin kitabxanasındakı 2400-ə yaxın kitab, ayrı-ayrı fənlərə aid dərsliklər, ensiklopediyalar, bədii ədəbiyyatlar məktəbdə kitabxana işinin günün tələbləri səviyyəsində təşkilinə imkan verir. Bütün bunlar tədrisin keyfiyyətinə də müsbət təsir göstərir, məktəbin hər il ali təhsil ocaqlarına qəbulu yüksək səviyyədə olur. Dörd bir tərəfi abadlaşdırılan, gülkarlıqlar yaradılan, ağaclar əkilən, ümumiyyətlə, gözəlliklər əhatəsində yerləşən məktəb binası bu dağ kəndinin müəllim və şagirdlərinə illərdən bəri gözlədikləri əvəzsiz bir töhfədir. Məktəbdə müasir qazanxana sisteminin qurulması ilə istilik sarıdan əvvəllər mövcud olan çətinliklər aradan qalxıb. Ümumiyyətlə, qış ayları çox soyuq keçən kənd başdan-başa qazlaşdırılıb, fasiləsiz elektrik enerjisi ilə təmin olunub. Gömürlülər bu cür təminatlı həyatla on illər öncəki unudulmaz miskin günləri arxada qoyub, indi həmin çətinlikləri, sadəcə, o dövrün acı xatirəsi kimi yada salır, bu günün tərəqqisindən fərəhlənir, qürur hissi keçirir, dövlətimizin yaratdığı imkanlardan səmərəli istifadə edərək güzəranlarını yaxşılaşdırırlar.

Kəndə qısa ekskursiya zamanı icra nümayəndəsi ilə əhali, onların məşğuliyyəti, dolanışıqları, yaşayışları barədə də söhbət edirik. Məlum olur ki, kənddə 578 sakin 109 evdə, 163 təsərrüfatda birləşir. 1988-ci il hadisələri zamanı kəndə pənah gətirənlər üçün 19 fərdi mənzil tikilib onların istifadəsinə verilib. Ötən 34 il ərzində burada yaşayan qaçqın və məcburi köçkünlər kənd camaatına qaynayıb-qarışıb, isinişiblər. Hətta kənd sakinlərinə qız verib, qız alıb qohumlaşıb, doğmalaşıblar. Ötən illərdə ocaqlarda övladlar, nəvələr, nəticələr dünyaya göz açıb, böyüyüb, bu kəndin doğma balalarına çevriliblər. İndi onlar dövlətimizin qayğısı sayəsində doğma yurdları qədər əziz bildikləri bu kənddə əkib-biçir, nəcə deyərlər, çörəklərini torpaqdan çıxarırlar.

Gömürlülər, əsasən, meyvəçilik, maldarlıq, heyvandarlıq və arıçılıqla məşğul olurlar. Bu yurdun həm içməli, həm də suvarma suyuna olan tələbatı ürəkaçandır. Kəndin 2569 hektar torpaq sahəsi var. Bunun 33 hektarı həyətyanı, 170 hektarı əkinəyararlı, 7,5 hektar kəndin perspektiv inkişafı üçün bələdiyyənin balansında, qalanı isə ümumi istifadədə olan torpaq sahələridir. Kənddə sakinlər 1200 baş xırdabuynuzlu, 3000 baş iribuynuzlu, 11 minə yaxın quş saxlayırlar. Süd məhsulları – yağ, xama, pendir, qatıq, şor-kərə istehsal edən kəndlilər bu məhsullarla öz ailələrini təmin etməklə yanaşı, həm də onları bazara çıxarır, digər məhsullara olan ehtiyaclarını ödəyirlər. Yerli şəraitə uyğun olaraq, əsasən, həyətyanı sahələrində kartof əkini keçirən və tonlarla məhsul tədarük edən gömürlülər bu iş sayəsində də xeyli gəlir götürürlər.

Meyvəçilik kəndlilərin əsas məşğuliyyət sahələrindəndir. Kəndi gəzən zaman bunu deməyə əsas verən maraqlı faktlarla rastlaşıram. Belə ki, həyətlərin yanından keçərkən gördüyüm mənzərələr, yəni "Gömürün meyvəsini yığmaqla qurtarmaq olarmı?" təəssüratını yaradır məndə. Kənardan adama elə gəlir ki, ağacların üzərinə sarı, qırmızı, al-əlvan yaylıqlar çəkilib. Alma, armud ağaclarında budaqların sıxlığı bol məhsuldan xəbər verir.

Kəndin 34 təsərrüfatında arı saxlanılır. 440 arı ailəsi ucqar dağ kəndinin bənzərsiz yaylaqlarının gül-çiçəyinin şirəsini təbii, dadlı bala çevirib sahibinə xeyli gəlir gətirir. Düşünürsən ki, 163 təsərrüfatın 34-də arı saxlanılırsa, bu elə tək həmin sayda ailənin xoş güzəranı deməkdir. Bir sözlə, kənd sakinləri kimdə nə yoxdursa, onu bir-birilərindən ala bilirlərsə, bunun özü yaranan hansısa tələbatın uzaqlarda axtarılmasının qarşısını alır, ailələrdə ehtiyac duyulan hər hansı bir məhsulun çətinliklə deyil, çox asanlıqla əldə olunmasına şərait yaradır. Kənddə biri bal satır, biri pendir, biri yun, digəri cəviz, yağ, şor. Bir sözlə, bütün təbii məhsullar əlçatandır. Belə yerdə yaşamağa nə var ki...

Maraqlı söhbətlərlə kəndi gəzib, insanların rahat alış-veriş etmələrinə, gündəlik qayğılarını tam ödəməyə imkan verən xidmət mərkəzinin yanından keçib, yenidən kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binasına qayıdırıq. Binanın pəncərəsindən sıldırımlı dağlara, yalçın qayalara açılan gözəl mənzərəni seyr edərkən dağların o üzündə bədxah ermənilərin olduğu düşüncələrimə hakim kəsilir: nə qədər yaxındır, sanki üz-üzə dayanmışıq.

Kənddə sosial obyektlərin açılışı zamanı Ali Məclisin Sədri buradakı hərbi hissədə də olub, şəxsi heyət qarşısında çıxış edərək deyib: ***"Bu gün Azərbaycan sərhədləri etibarlı müdafiə olunur. Əsgərlərimizin şücaəti sərhədlərdə sabitliyin qorunmasına, torpaqlarımızın etibarlı müdafiəsinə təminat verir. Çətin dağlıq şəraitdə yerləşməsinə baxmayaraq, burada da sərhədlərimizin qorunmasında və xidmətin təşkilində hərbi nizamnamənin tələbləri pozulmur".***

Həqiqətən də, Ermənistanla çox yaxın məsafədə yerləşən hərbi hissədə qalib Əlahiddə Ümumqoşun Ordunun mətin əsgərləri ayıq-sayıq keşikdə dayanıb. Bunun üçün də məsafə nə qədər yaxın olursa olsun, qorxmaq lazım deyil. Günü-gündən qüdrətlənən müzəffər Ordumuz 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı Böyük Qələbə ilə, eləcə də ötən günlərdə "Qisas" adlı antiterror əməliyyatında düşmənin gözünün odunu aldı. Qəhrəman oğulların əzəli yurdumuz Qarabağın əbədi olaraq düşmən işğalından azad edilməsi uğrunda göstərdiyi şücaətlər bu gün ön xətdə xidmət keçən əsgərlərin Vətənin keşiyində daha əzmli, mətn, ayıq-sayıq dayanmasına böyük stimul olub…

Ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələrdə qazanılan uğurlar barədə qürurverici düşüncələrlə geri qayıdırıq. Avtomobilimiz üzü şəhərə doğru yol aldıqca, kəndin əsrarəngiz təbiəti arxada qaldıqca xəyal adamı bir neçə il əvvələ aparır, yaşlı insanlardan eşitdiklərim, özümün rastına çıxan mənzərələr gözlərim önündə canlanır. Düşünürəm: "Məgər bir vaxtlar Gömür kimi ucqar dağ kəndinə belə abad yollarla gedib çıxmaq mümkün idimi? Bu qədər yeni tikililərlə, meşə, bağ sahələri ilə qarşılaşmaq olardımı?" Təbii ki, diyarımızın bütün kəndlərində olduğu kimi, burada da sovet dönəmindən qalma köhnəlikdən, cansıxıcı görkəmdən savayı heç nə ilə rastlaşmaq mümkün deyildi. Bu gün isə quruculuq prosesi elə məhz ucqarlardan başlayaraq hər yeri əhatə edibsə, insanlar iməciliklər yolu ilə yaşadıqları eli-obanı abadlaşdırırlarsa, qurub-yaradırlarsa, deməli, dövlətimizin qayğısı sayəsində onlarda yaşamaq həvəsi güclənib, həyata daha sıx tellərlə bağlanıblar. Bunları Gömürdə bir gün ərzində müşahidə etdim. Gördüm ki, ucqar bir kənd olmasına baxmayaraq, burada yaşamaq üçün hərtərəfli şərait yaradılıb. İnsanlar torpağa, öz yaşayış məskənlərinə böyük məhəbbət, sevgi hissi ilə bağlanıblar.

*Gömürdə bir gün ərzində etiraf etməyə borclu olduğum bir hissi də yaşadım. Bu hiss əvvəllər təsadüfən dağ kəndinə yolum düşəndə saatları saymağım, İlahi, bircə geri dönsəydim, – deməyim, sonralar isə peşmələ əlaqədar hər gəlişimdə olduğu kimi, əksinə, kənddən ayrılmaq istəməməyim idi...*

**Nail ƏSGƏROV**

## Altı ay ərzində muxtar respublikada 3048 abonent internetlə təmin olunmuşdur

Müasir texnologiyaların tətbiq edilməsi nəticəsində göstərilən telekommunikasiya xidmətlərinin əhatə dairəsi ilbəil artırılır, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilir, müasir rabitə sistemləri qurulur, sürətli internetə çıxış təmin olunur. Yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət artırılır. Telefon, genişzolaqlı internet və digər müasir telekommunikasiya xidmətlərinin müasir səviyyədə təşkili istiqamətində bir sıra layihələr həyata keçirilir.

Həyata keçirilmiş tədbirlər və artan tələbat fonunda Naxçıvan şəhərinin, Şərur, Babək, Ordubad, Şahbuz və Sədərək rayonlarının bir sıra kəndlərində fəaliyyət göstərən yeni nəsil HUAWEI NGN tipli avtomat telefon stansiyalarının internet tutumları artırılmışdır ki, nəticə etibarı ilə, 2700-dən artıq internet istifadəçisinin tələbatının ödənilməsinə imkan yaranmışdır. 2022-ci ilin ilk altı ayı ərzində, ümumilikdə, 3032 abonent ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) internetlə təmin olunmuşdur. GPON (Gigabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında həyata keçirilən "Evədək optika" layihəsi çərçivəsində isə Naxçıvan şəhərində 16 fərdi mənzilə fiber-optik xətlər çəkilmiş, zəruri avadanlıqlar quraşdırılmışdır.

Qeyd olunanlarla yanaşı, internet xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində müvafiq təhlillər aparılmış, müraciətlərinə uyğun olaraq əhaliyə və dövlət qurumlarına texniki dəstək və metodik köməkliklər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi Aktların Dövlət Reyestrindən istifadə edənlərin sayı artır

Müasir dövrün əsas tələblərindən olan informasiya-kommunikasiya texnologiyaları vasitəsilə bilik və informasiyanın ötürülməsi gündəlik fəaliyyətimizə operativlik, asanlıq və digər üstünlükləri əlavə etməklə həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu gün vətəndaşlar internet resurslarından istifadə edərək dövlətin və cəmiyyətin bütün sferalarında baş verən hadisələr, yeniliklər, dəyişikliklər və digər məlumatlarla tanış olurlar. Sözsüz ki, cəmiyyətin və texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdə yeni yaranan ictimai münasibətləri tənzimləyən hüquqi aktların qəbulu prosesi də sürətlə artmaqdadır. Başqa sözlə desək, dövlətdə və cəmiyyət həyatında baş verən dəyişikliklər hüquq sisteminə də öz təsirini göstərir və nəticədə, ya yeni normalar yaranır, ya da mövcud normalardan günün tələbinə uyğun olmayan elementlər xaric olunur. Bu baxımdan 2011-ci il 19 iyul tarixdə "Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi yeni qəbul edilən hüquqi aktların vahid və ümumi qaydalara söykənməsi üçün hüquqi əsas yaratmışdır. Həmin qanuna uyğun olaraq normayaratma səlahiyyətinə malik orqanlar, nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanları, eyni zamanda yerli icra hakimiyyəti və yerli özünüidarə orqanları tərəfindən fəaliyyət dairələrinə aid olan məsələlər üzrə hüquqi aktlar qəbul edilir.

Qanunda əksini tapan mühüm yeniliklərdən biri də Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin yaradılması olmuşdur. Dövlət Reyestrinin yaradılmasında məqsəd, qəbul edilən hüquqi aktların aşkarlığının təmin edilməsinə nail olmaq, müvafiq dövlət orqanlarının qarşılıqlı əlaqələrini bu istiqamət üzrə müəyyən etməkdir. Reyestrin elektron variantının yaradılması ictimaiyyətin, müxtəlif sahələrdə çalışan peşə sahiblərinin vaxt itkisinə yol vermədən qanunvericilik aktlarının mətni ilə birbaşa tanış olması baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda Hüquqi Aktların Dövlət Reyestri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən aparılır və fəaliyyət göstərdiyi müddətdə reyestrə iki min dörd yüzdən çox hüquqi akt daxil edilmişdir.

Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunan bütün hüquqi aktlar *"huquqiaktlar.nakhchivan.az"* internet saytında dərc edilir və ümumi istifadə üçün daimi açıqlığı təmin olunur. Saytda hüquqi aktların məzmunu ilə tanışlıqla yanaşı, sənədlərin axtarışının həyata keçirilməsi də mümkündür. Eyni zamanda sayt milli qanunvericiliyin digər elektron bazasına daxil olmaq imkanı da yaradır.

Bu gün muxtar respublikamızda aparılan mütərəqqi islahatlar geniş qanunyaradıcı fəaliyyətlə müşayiət edilir. Reyestrin geniş qanunvericilik bazasının əks olunması və daim yenilənməsi internet istifadəçilərinin diqqətini cəlb edir. Zaman keçdikcə yeni hüquqi aktların reyestrə daxil edilməsinin nəticəsidir ki, ilbəil elektron istifadəçilərinin sayı artır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikamızda gənclərin potensiallarını reallaşdırmaq üçün geniş imkanlar yaradılıb

*Azərbaycanda dövlət gənclər siyasəti gənclərə həmişə diqqət və qayğı ilə yanaşan və bu siyasəti dövlətin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri kimi dəyərləndirən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müasir dövrümüzdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla davam etdirilən dövlət gənclər siyasəti, məhz ulu öndərin gənclər siyasətinin məntiqi davamıdır. Bu gün Naxçıvan Muxtar Respublikasında da gənclərə yüksək diqqət və qayğı göstərilir, uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Diyarımızda gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönəlmiş, onların istedad və intellektlərinin inkişaf etdirilməsinə kömək məqsədilə fərman və sərəncamlar, Dövlət proqramları qəbul olunur. Hazırda muxtar respublikada gənclərin təşkilatlanması əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib. Bu gün Naxçıvan gəncliyinin uğurları, nailiyyətləri, səsi beynəlxalq aləmdən eşidilir. Mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayan gəncliyə və gənclərə etimad artıq öz təsdiqini tapmaqdadır. Gənclərin inkişafı, vətənpərvərlik tərbiyəsi, təhsili, sosial problemlərinin həlli istiqamətində görülən işlər, onların yüksək vəzifələrə təyinatı bu sahəyə göstərilən böyük diqqətin nəticəsidir. Qədim diyarımızın milli dəyərlər, vətənpərvərlik ruhunda, zəngin ənənələr üzərində yetişib formalaşan, müasir dünyagörüşünə və fərqli potensiala malik gənclərindən bir neçəsi ilə gəlin birgə tanış olaq.*

Ordubad rayonunun Nüsnüs kəndində müəllim ailəsində anadan olan ***Ayxan Hüseynli*** 2014-cü ildə Naxçıvan Müəllimlər İnstitutunun bakalavr, 2017-ci ildə həmin institutun Təhsildə



sosial-psixoloji xidmət ixtisaslaşması üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirdikdən sonra doktorantura təhsilini Naxçıvan Dövlət Universitetində davam etdirib. Təhsil aldığı illərdə institutun ictimai həyatında fəal iştirak edib, bir çox layihənin rəhbəri, ideya müəllifi, təşkilatçısı olub. Magistr təhsili aldığı dövrdə 10-a yaxın məqaləsi "Azərbaycan məktəbi"ndə, institutun "Elmi əsərlər" jurnalında nəşr olunub. Muxtar respublikanın şəhər və rayon qəzetlərində 20-dən artıq publisistik məqaləsi dərc edilib. Ayxan Hüseynli 2017-ci ilin sentyabr ayından Naxçıvan Müəllimlər İnstitutunun Tələbə-Gənclər Təşkilatının sədridir. Doktorantlıq illərində elmi rəhbəri ilə birlikdə ciddi tədqiqatlar aparan gənc müəllim ötən dövrdə elmi yeniliklərlə zəngin dissertasiya işi ərsəyə gətirib: "Məktəbəqədər və kiçik məktəbyaşlı dizartriyalı uşaqlarla aparılan korreksiya işlərinin elmi pedaqoji əsasları" mövzusunda yazdığım dissertasiya işini tamamladım. Elmi işdə sağlamlıq imkanları məhdud uşaqların, xüsusilə nitqi qüsurlu uşaqların təhsilə cəlb olunmasında davamlılığın təmin edilməsi, onların inklüziv və məsafədən təhsil imkanlarının genişləndirilməsi və cəmiyyətə inteqrasiyası məsələlərinin əhəmiyyəti hərtərəfli şəkildə araşdırılıb. Eyni zamanda ölkəmizin və dünya universitetlərinin elmi jurnallarında, keçirilən konfranslarda məruzə və məqalələrlə çıxış etmişəm. Belə ki, 2020-ci ildə Moskva şəhərində keçirilən beynəlxalq konfransda mövzu ilə bağlı məruzə ilə çıxış etdim və həmin konfransda ən yaxşı məruzəyə görə I dərəcəli diploma layiq görüldüm. Elə həmin il Ukrayna Təhsil və Elm Nazirliyi və Ukrayna Dövlət Pedaqoji Universitetinin birgə təşkilatçılığı ilə "Gənclərin elmi əsərlərinin universitetlərarası toplusu" adlı jurnalda, 2021-ci ildə isə ABŞ-ın Boston şəhərində "Müasir elm və təhsilin problemləri və perspektivlərinə beynəlxalq baxış" LXXXI Beynəlxalq Elmi-praktik konfransda məqalələr ilə iştirak etdim.

Qeyd edək ki, Ayxan Hüseynli həm gənc müəllim, həm də Tələbə-Gənclər Təşkilatının sədri kimi nümunəvi fəaliyyəti ilə seçilir. Təşkilatın sədri kimi ötən 5 il ərzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Gənclər Fondu ilə sıx əməkdaşlıq edən Ayxanın rəhbərliyi ilə bir çox layihə həyata keçirilib: "Gənclik gələcəkdir. Sağlamdüşüncəli gənclik cəmiyyətin həyatında çox önəmli rol oynayır", – deyən Ayxan Hüseynli söhbətinə belə davam edir: – Dövlət gənclər siyasəti bu gün muxtar respublikada Ali Məclis Sədrinin uğurlu siyasi fəaliyyətinin nəticəsində yeni inkişaf mərhələsinə çatdırılıb. Gənclərin hərtərəfli inkişafı, təhsilli, savadlı, vətənpərvər ruhda böyüməsi, müxtəlif sahələrdə fəal iştirakı təmin olunur. Muxtar respublika rəhbərinin məqsədyönlü, düzgün siyasəti nəticəsində gənc kadrlara münasibəti də ötən illər ərzində həmişə müsbət yanaşmalarla müşahidə edilib. Bəlkə, bu səbəbdəndir ki, həmin gənclər bu gün iqtisadiyyatın müxtəlif sahələrində, habelə elm və təhsil sferasında uğurla çalışır, öz potensiallarını ortaya qoymağa səy göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır".***

2001-ci ildə Naxçıvan şəhərində anadan olan ***Tərlan Məmmədova***nın uşaqlıq arzusu məhz musiqiçi olmaq olub: "12 yaşımda bu arzumu həyata keçirdim və 2 nömrəli musiqi məktəbində təhsil almağa başladım. Burada



oxuduğum müddətdə orkestrdə, ansambllarda, bir sıra konsert və müsabiqələrdə iştirak etmişəm. 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə qanun ifaçıları arasında 2-ci yerə layiq görülmüşəm. Həmin ildə Naxçıvan Musiqi Kollecinin Qanun ixtisasına qəbul olundum. Burada təhsil aldığım müddətdə də bir çox ansambl konsertlərin və bəzi festivalların iştirakçısı olmuşam. 2019-cu ildə Naxçıvan televiziyasında "Nuhçıxan" ansamblında qanun ifaçısı kimi işə başladım. Həmin ildən həm də könüllü gənc kimi fəaliyyət göstərirəm. Gəncliyimin daha fəal keçməsində sağlam, savadlı, intellektual düşüncəli gənclərlə tədbirlərdə iştirakım böyük rol oynayıb. Bu il bir sıra təlimlərdə, intellektual oyunlarda, müsabiqələrdə, kitab müzakirələrində qazilərimizlə görüşlərdə fəal iştirak etmişəm".

Tərlan Məmmədova musiqi ilə yanaşı, həm də rəsm çəkmək qabiliyyətinə malikdir. Bu böyük hobbisi təbiət rəsmlərini çəkməkdir ki, məhz bu rəsmlərə görə Gənclər və İdman Nazirliyinin təşkil etdiyi müsabiqədə mükafat qazanıb. Hazırda Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində təhsilini davam etdirən gənc könüllümüz, eyni zamanda universitetdə ansambl, orkestrlərlə birlikdə konsertlərdə iştirak edir. Qarşımızdakı aylarda solo konsert verməyi planlaşdıran Tərlan Məmmədova, həmçinin universitetin tabeliyində olan Tələbə Həmkarlar İttifaqı Komitəsinin İncəsənət fakültəsi üzrə sədri vəzifəsində çalışır: "Gənclik böyük qüvvədir. Bu gün Azərbaycan gəncləri olaraq öz fəaliyyətimiz ilə sübut edirik ki, ölkəmizin dəyərli vətəndaşlarıyıq. Bu, böyük xoşbəxtlik, böyük səadətdir ki, indiki gənclər müstəqillik dövründə formalaşırlar. Azərbaycan gəncləri hər bir sahədə fərqlənir və qayğı ilə əhatə edilirlər. Naxçıvan gəncləri olaraq ölkə daxilində keçirilən intellektual oyunlarda, fərdi müsabiqələrdə layiqli yerlər qazanmışıq. Müvəffəqiyyətlərimizə verilən qiymət bizi daha da ruhlandırır. Onu da deyim ki, 2021-ci il üçün "İlin fəal gənci" nominasiyası üzrə təltif olundum. Əlbəttə, bu adlar digər gənclər üçün böyük motivasiyadır. Könüllülük layihəsi gəncliyimizin ən təcrübəli, ən əyləncəli, ən öyrədici fəaliyyətidir deyə bilərik. Belə layihələr biz gənclərə mənəvi zənginlik bəxş etməklə yanaşı, yeni dostlar, yeni tanışlar qazandırır".

1998-ci ildə Naxçıvan şəhərində dünyaya göz açan ***Fuad Babayev*** Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasını bitirib. Təhsil



aldığı dövrdə idmana böyük maraq göstərən Fuad üzgüçülük üzrə muxtar respublika birinciliyinin mükafatçısı olub. Hazırda Naxçıvan Dövlət Universitetinin 2-ci kurs magistrantı, Tələbə Elmi Cəmiyyətinin magistratura şurasının sədri və "Enactus" komandasının koordinatoru olaraq fəaliyyətini davam etdirən Fuad Babayev ilk dəfə 2017-ci ildə HUAWEI şirkətinin Çin Xalq Respublikasında təşkil etdiyi yay təcrübə proqramı düşərgəsinin seçim mərhələsinin qaliblərindən biri kimi HUAWEI şirkətinin baş qərargahında təcrübə qazanıb. Onunla da söhbətimiz maraqlı oldu. Fuad Babayev dedi ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondunun həyata keçirdikləri intellektual oyunların aparıcısı, o cümlədən də iştirakçısı qismində bir neçə dəfə qalibi olmuşam. 2018-ci ildə keçirilən IV Azərbaycan Gənclər Forumunun Naxçıvan konfransında fəal gənc kimi uğurlu çıxış edərək IV Azərbaycan Gənclər Forumunda iştirak etmişəm. Naxçıvan Dövlət Universitetində akademik fəaliyyət kimi ixtisaslaşmağı məqsəd tutaraq 2021-ci ildə həmin universitetin Magistratura Mərkəzinin İnformasiya mühafizəsi və təhlükəsizliyi ixtisasına qəbul oldum. Ardıcıl olaraq fəaliyyətimi daha yüksək səviyyədə davam etdirməyi qərara aldım. Belə ki, Tələbə Elmi Cəmiyyətinin Magistratura şura sədri seçilərək elmi layihələr, müxtəlif proqramlar həyata keçirdim, tələbələrin professorlarla görüşlərini təşkil etdim. Bununla belə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun dəstəyi ilə muxtar respublikada fəaliyyət göstərən tələbə və gənclər təşkilatlarının 2022-ci il üçün fəaliyyət strategiyasının hazırlanması düşərgəsində də uğurlu çıxışım oldu.

Qeyd etdiyim kimi, Naxçıvan Dövlət Universitetinin "Enactus" komandasına ümumi koordinator seçilərək komandanın uğurlu fəaliyyətinin təşkilində iştirak etdim. Cari ildə komanda 2 layihə ilə bu yarışda iştirak etdi və yarımfinal mərhələsində 177 xalla ən yüksək nəticəni göstərərək final mərhələsinə vəsiqə qazandı. Təqdim etdiyimiz layihələr BMT-nin 17 dayanıqlı inkişaf məqsədindən 8-ni özündə birləşdirib. Layihənin yekunu olaraq dövlət rəsmilərinin, o cümlədən şirkət rəhbərlərinin də iştirak etdiyi final mərhələsində komandamız ölkə üzrə 2-ci yerə layiq görüldü.

Fuad Babayevin fikrincə, tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaqdır. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər yaşayır və ölkənin hərtərəfli, uğurlu inkişafına hər bir insan öz töhfəsini verməlidir. Hər bir xalqın tarixində onun borclu olduğu şəxsiyyətlər vardır. Azərbaycan xalqı isə bu günü və sabahı üçün ulu öndərimiz Heydər Əliyevə borcludur. Ümummilli liderimiz həmişə xalqına arxalanır, onun gəncliyinə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində ulu öndər sağlam gəncliyin, intellektli, bacarıqlı bir nəslin yetişməsinə xidmət edirdi. Ulu öndərin siyasi ideologiyasının davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu ideologiyanı uğurla davam etdirir. Uğurlu siyasətin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da gənclər siyasətinin həyata keçirilməsi ilə gənclərin vətənpərvər ruhda yetişməsi, beynəlxalq aləmdə muxtar respublikanın tanıdılmasında onlara yüksək səviyyədə dəstək olur. Göstərilən qayğı və diqqətin bariz nümunəsidir ki, gənclərimiz hər bir sahədə uğurla addımlayır.

Digər gəncimizin 14 yaşının olmasına baxmayaraq, rəqibləri onun uğurlarına həsəd aparır, tatamidə arzuolunmaz rəqib kimi qəbul edilirlər. Onun idmana gəlişi də məhz bu nüansdan doğub, hər zaman idmanla məşğul olan qızları gördükdə onda müəyyən fikir formalaşıb. İdmançı kimi ölkəmizi layiqincə təmsil etmək onun ən böyük arzusu olub. ***Nərgiz Həsənli*** prinsipiallığı ilə bu arzuların gerçəkləşməsinə qısa zamanda



nail ola bilib. Aramsız və çətin məşqlər onu yorsa da, tutduğu yoldan geri dönməyib. İdmançılar üçün yaradılan şəraitdən maksimum yararlanan Nərgizin ilk məşqçisi Nəriman Quliyev olub. Nərgiz deyir ki, uzun müddət gərgin məşqlər nəticəsində bir çox uğurlar əldə etdim. Naxçıvanda keçirilən beynəlxalq turnirdə, Qara dəniz və Xəzər dənizi ətrafı ölkələr arasında karate çempionatında uğur qazandıqdan sonra 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Arpaçay Open", Bakı Open-2019, "Batumi Open" və "Olimpiya ümidləri" adlı beynəlxalq turnirlərdə də bürünc medal qazandım. Bu yarışlarda həm də böyük təcrübə topladım. Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş karate-do üzrə "Naxçıvan Open" beynəlxalq turnirində isə fəxri kürsünün ən yüksək pilləsinə qalxdım. Bu mənim üçün ən böyük uğur idi. Doğma azarkeşlərin önündə belə bir uğura imza atmaq qürurvericidir.

Qeyd edək ki, Nərgiz Həsənli muxtar respublikanı Avropada layiqincə təmsil edən qız idmançılarımızdan biridir. Azərbaycanın karate üzrə müəyyən yaş qruplarında mübarizə aparan idmançımız 2019-cu ildə ona göstərilən etimadı doğrultdu. Makedoniyanın Skopye şəhərində keçirilən karate-do üzrə XI Avropa çempionatında kata və kumite yarışlarında mübarizə apardı və bürünc medala layiq görüldü. O deyir ki, bu, sözlə ifadə edilə bilməyəcək bir hissdir. Avropanın ən güclü idmançıları ilə eyni tatamidə mübarizə aparmaq və mükafat qazanmaq böyük uğurdur. Əvvəlcə qitə birinciliyində daha sonra çıxış etdiyim "V Arpaçay Open", "Naxçıvan Open" və Türkiyə V Beynəlxalq Çanaqqala çempionatında qalib oldum və 2021-ci il Xorvatiyanın Porec şəhərində keçirilən dünya kuboku uğrunda yarışlarda iştirak etmək hüququ qazandım.

2022-ci ili Nərgiz üçün uğurlu il hesab etmək olar. Belə ki, Bolqarıstanda təşkil edilən Dünya Şotokan Federasiyasının 12-ci Avropa çempionatında (13 yaş, 50 kiloqram) gümüş medal qazanan gənc idmançımız medal kolleksiyasını zənginləşdirdi. Ardınca "Arpaçay Open" (WKF üzrə Azərbaycan çempionu – 13 yaş, 50 kiloqram) beynəlxalq turnirinin qalibi olan idmançımız Milli Olimpiya Komitəsinin yaranmasının 50 illiyinə həsr olunmuş Azərbaycan çempionatında da (12-13 yaş, 50 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Naxçıvan Qızlar Liseyinin şagirdi olan gənc karateçimizin ən böyük arzusu böyüklərarası dünya çempionu olmaqdır. Onun dediklərindən: "Qazandığım uğurlarla arxayınlaşmayıb məşqlərimi davam etdirirəm. Qarşıma məqsəd qoymuşam ki, naxçıvanlı idmançı olaraq dünya kubokunu qazanım. Federasiyamız bizim yarışlarda iştirakımızı daim təmin edir. Karateçilər adından yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm".

*Bəli, bu gün Naxçıvan gəncliyi öz yerini tapmaq, muxtar diyarımızın inkişafına töhfəsini vermək istiqamətində ciddi uğurlar əldə edib. Qarşıya qoyulan böyük məqsədi və məsuliyyəti dərk edən gənclərimiz 44 günlük Vətən müharibəsində böyük qəhrəmanlıq salnaməsi yazaraq dünyaya nümunə oldular. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi:* ***"Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".*** *Bu gün ölkənin hər bir regionunda dövlət müstəqilliyinin əbədi və əzəli olmasını qorumaq və saxlamaq üçün gənclər vətənpərvər ruhda tərbiyə alır, böyük məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayırlar.*

**✍ Ceyhun MƏMMƏDOV**

## Monitorinqlər davam etdirilir

Naxçıvan Muxtar Respublikasında qadınların məşğulluqlarının təmin olunması daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müvafiq sahənin inkişafı ilə bağlı sosial layihələr icra olunur, qadınlara fəaliyyət istiqamətlərinin inkişafı və genişləndirilməsi üçün sərmayə kapitalı verilir. Komitə tərəfindən sərmayə kapitalından düzgün istifadə edilməsi üçün mütəmadi olaraq monitorinqlər keçirilir.

2022-ci il 9 avqust tarixdə "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində sərmayə kapitalı almış 4 qadının təsərrüfat sahəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən monitorinqlər keçirilmişdir. Belə ki, verilmiş sərmayə kapitalı sayəsində damazlıq heyvandarlıq – iribuynuzlu təsərrüfatı ilə məşğul olan Babək rayon Cəhri kənd sakini Xəyalə Quliyeva və Yarımca kənd sakini Tünzalə Məmmədova, damazlıq heyvandarlıq – xırdabuynuzlu təsərrüfatı ilə məşğul olan Zeynəddin kənd sakini Məhbubə Əhmədova və dərzilik fəaliyyət sahəsi ilə məşğul olan Sirab kənd sakini Aynur İsmayılovanın təsərrüfat sahələrində monitorinqlər keçirilmişdir. Monitorinqlər zamanı məlum olmuşdur ki, sərmayə kapitalı alanların hər biri ondan təyinatlarına uyğun istifadə edərək təsərrüfatını və sahibkarlıq fəaliyyətini genişləndirib.

Sonda qadınlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları tərəfindən Kəngərli rayonunun Qabıllı kənd mərkəzində həmin rayon üzrə icra və probasiya bölməsinin icraatında olan aliment və pul tələbi ilə bağlı icra işləri üzrə borclu şəxslərlə profilaktik söhbətlər aparılıb.*

## İcra sənədi üzrə borclularla profilaktik söhbətlər davam etdirilir



Söhbət zamanı borclu şəxslərə bu sahədə qüvvədə olan qanunvericiliyin tələbləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, bu gün məhkəmə qərarlarının təmin olunması, icradan qərəzli olaraq boyun qaçıran, ödəmələrin aparılmasından yayınan və qərarların icrasına laqeyd yanaşan borcluların icraya cəlb edilməsi, bu sahədə yaranan maneələrin aradan qaldırılması, həmçinin vətəndaşların hüquqlarının və qanuni mənafelərinin qorunması nazirlik tərəfindən diqqətdə saxlanılır. Hazırda qanunvericiliyin tələblərinə görə məhkəmə qərarlarını vaxtında icra etməyənlərin inzibati və cinayət məsuliyyətinə cəlb olunması nəzərdə tutulur. Ona görə də bütün hallarda məhkəmə qərarlarında göstərilən pul vəsaitlərinin ödənilməsi vaxtında təmin edilməli və bu istiqamətdə icra məmurlarının tələbləri yerinə yetirilməlidir.

Sonra aliment və pul tələbi ilə bağlı ödənişlərini vaxtında ödəməyən borclular dinlənilmiş, yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində müzakirələr aparılmış və iştirakçıların suallarına aydınlıq gətirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Muzey əməkdaşları üçün seminar-treninq



*Cəlil Məmmədquluzadənin ev-muzeyində "Muzey sərvətlərinin qablaşdırılması və daşınması. Ümumi qaydalar" mövzusunda seminar-treninq keçirilib.*

Seminar-treninqi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi aparatının şöbə müdiri Gülbuta Babayeva açaraq mövzu üzrə çıxış edib.

Qeyd olunub ki, xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən muzeylər ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Naxçıvan Muxtar Respublikasında da muzeylərin fəaliyyəti, muzey xidmətinin təşkili diqqət mərkəzində saxlanılır. Hazırda nazirliyin sistemində 1 rəsm qalereyası və 29 müxtəlif profilli muzey fəaliyyət göstərir.

Vurğulanıb ki, mühafizə sahəsində əşyaların qablaşdırılması və daşınmasının özünəməxsus yeri vardır. Nəqliyyat vasitəsilə daşınması nəzərdə tutulmuş əşyalar muzeyin bərpa şurası, yaxud tərkibinə muzeyin məsul işçilərinin daxil olduğu xüsusi komissiya tərəfindən diqqətlə gözdən keçirilməlidir.

Bildirilib ki, əşyaların qablaşdırılması, qablaşdırılmaya məsul olan elmi işçinin, yaxud mühafizin və bərpaçının nəzarəti altında ixtisaslı qablaşdırıcılar tərəfindən yerinə yetirilir.

Sonra mövzu ətrafında müzakirələr aparılıb və muzeyin ekspozisiyasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 29 avqust 2022-ci il tarixdə güzəştli satışla açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin start qiymətinin 25 faiz güzəştli satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | VAZ-21214 | Minik | 2006 | 1 | 6000.0 | 800 |
| 2. | VAZ-2121 | Minik | 1993 | 1 | 4125.0 | 550 |
| 3. | UAZ-31512 | Minik | 2004 | 2 | 4875.0 | 650 |
| 4. | QAZ-3308 | Yük | 2003 | 27 | 5250.0 | 700 |
| 5. | QAZ-3308 | Yük | 2002 | 1 | 4500.0 | 600 |
| 6. | Zil-130 | Yük | 1983 | 1 | 3750.0 | 500 |
| 7. | Zil-131 | AÇ-4.5 su | 1985 | 1 | 5250.0 | 700 |
| 8. | Zil-131 | AÇ-4.2 su | 1989 | 1 | 6000.0 | 800 |
| 9. | Zil-131 | AÇ-4.5 su | 1985 | 1 | 5250.0 | 700 |
| 10. | Zil-131 | TA-6 | 1989 | 1 | 6000.0 | 800 |
| 11. | Zil-131 | AÇ-4.5 su | 1990 | 1 | 6375.0 | 850 |
| 12. | Zil-131 | 8 YU 12 | 1988 | 1 | 6000.0 | 800 |
| 13. | Zil-131 | AD-30 | 1988 | 1 | 6000.0 | 800 |
| 14. | Zil-131 | Hidrokran | 1987 | 1 | 11250.0 | 1500 |
| 15. | Zil-131 | Hidrokran | 1985 | 1 | 10500.0 | 1400 |
| 16. | URAL-4320 | Özüboşaldan | 1993 | 1 | 12750.0 | 1700 |
| 17. | Kamaz-4310 | Yük | 1986 | 1 | 18750.0 | 2500 |
| 18. | Kamaz-43101 | Yük | 1985 | 1 | 15000.0 | 2000 |
| 19. | UAZ-31512 | Minik | 1987 | 1 | 4125.0 | 550 |
| 20. | UAZ-31512 | Minik | 1989 | 2 | 4125.0 | 550 |
| 21. | Kamaz-5511 | Yük | 1988 | 1 | 8250.0 | 1100 |
| 22. | Ekskavator EA | Yük | 1978 | 1 | 6000.0 | 800 |
| 23. | BMC PRO-522 | Yük | 2009 | 1 | 25450.5 | 3393.40 |
| 24. | NİSSAN MAXİMA | Minik | 2006 | 1 | 9750.0 | 1300 |
| 25. | NEXİA 2 SONC | Minik | 2009 | 1 | 6000.0 | 800 |
| 26. | VAZ-21217 | Minik | 2004 | 1 | 5250.0 | 700 |
| 27. | Opel Astra | Minik | 2007 | 1 | 6750.0 | 900 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 26 avqust 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 29 avqust 2022-ci il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

## Beynəlxalq Gənclər Gününə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin birgə Tədbirlər Planına uyğun olaraq muxtar respublikanın şəhər və rayonlarında Vətən müharibəsi iştirakçıları ilə görüşlər təşkil olunub. Tədbirdə mayor Təbriz Zeynalov, baş leytenantlar – Fərdi Cəlilov, Əli Əlisoy, Şakir Babayev, Əmrah Məmmədov, leytenant Ceyhun Davudov, Cövdət Əliyev və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əyyub Sadixov iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Nazirliyin əməkdaşı Valeh Mahmudov, Gənclər Fondunun əməkdaşı Fatimə Yusifli və Gənclər Birliyinin sədr müavini Elvin Əliyev çıxış edərək tədbirin keçirilmə məqsədi barədə danışıblar. Tədbir zamanı müharibə iştirakçılarına təşəkkürnamələr təqdim edilib. Hərbçilərimiz öz döyüş xatirələrini iştirakçılarla bölüşüb, gəncləri maraqlandıran sualları cavablandırıblar.

* * *



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi tərəfindən sağlamlıq imkanları məhdud gənclər arasında rəsm müsabiqəsi təşkil edilib. Beynəlxalq Gənclər Gününə həsr olunan tədbir Möminə xatın türbəsinin ətrafında reallaşıb. İştirakçılar sərbəst mövzuda öz yaradıcı düşüncələrini kağız və kətan üzərinə köçürüblər. Sonda həmin rəsm nümunələrinin sərgisi təşkil olunub. Münsiflər heyəti tərəfindən qiymətləndirmə aparılaraq simvolik üçlük müəyyənləşdirilib.

"Görüş yeri" kafesində keçirilən mükafatlandırma mərasimində müsabiqəni ilk üç yerdə tamamlayan iştirakçılara diplom, digərlərinə isə fəal iştiraka görə fəxri fərmanlar təqdim olunub. Bütün iştirakçılar hədiyyələrlə mükafatlandırılıb, onlar çay süfrəsi ətrafında təəssüratlarını bölüşüblər.

* * *



Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin birgə Tədbirlər Planına uyğun olaraq Beynəlxalq Gənclər Gününə həsr olunmuş daha bir idman birinciliyi keçirilib. Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində reallaşan yarış üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafəni əhatə edib. Birincilik 2006-2008-ci illər təvəllüdlü 20 idmançı iştirakı ilə keçirilib. Nəticələrə əsasən Camir Məmmədov birinciliyin qalibi olub. Anar Həsənov ikinciliyə nail olub. Elməddin Süleymanov ilə Elman Qəhrəmanlı üçüncülüklə kifayətləniblər. Birincilikdə ilk üç yeri tutan idmançılar 12 avqust tarixdə Beynəlxalq Gənclər Günü ilə bağlı keçiriləcək yekun tədbirdə mükafatlandırılacaqlar.

## İdmançılarımızdan uğurlu nəticələr



Abşeron Olimpiya İdman Kompleksində uşu üzrə Bakı açıq çempionatı keçirilib. Uşu Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışda 10-dan çox komandadan 130-a qədər idmançı iştirak edib.

Naxçıvan Kikboksinq Federasiyasının idmançıları da medallar uğrunda mübarizə aparıblar. Belə ki, məşqçi Kaməddin Rzayevin rəhbərliyi ilə yarışa 2 idmançımız qatılıb və uğurlu nəticəyə nail olub. Əli Nəsrullayev öz yaş qrupu üzrə (2008-2009) 33 kiloqram çəki dərəcəsində bütün rəqiblərini məğlub edərək fəxri kürsünün zirvəsinə yüksəlib. Fərişad Süleymanov isə (2006-2007) 52 kiloqram çəki dərəcəsi üzrə ikinci olub. Uğurlu nəticə əldə edən idmançılar diplom və medalla təltif olunublar.

Məlumat üçün bildirək ki, uşu idman növü Gənclərin Yay Olimpiya Oyunlarının proqramına daxil edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 1 sentyabr 2022-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin ilkin satış qiyməti (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|
| 1. | BMW 320I | Minik | 2006 | 1 | 8000.0 | 800 |
| 2. | BMW 320I | Minik | 2007 | 1 | 9000.0 | 900 |
| 3. | BMW 320I | Minik | 2007 | 1 | 9000.0 | 900 |
| 4. | FİAT DOBLO | Minik | 2008 | 1 | 10000.0 | 1000 |
| 5. | FİAT DOBLO | Minik | 2009 | 1 | 11000.0 | 1100 |
| 6. | NAZ LİFAN LF7162E-620 | Minik | 2011 | 1 | 9000.0 | 900 |
| 7. | NAZ LİFAN LF 7130A-520 | Minik | 2011 | 1 | 7000.0 | 700 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 29 avqust 2022-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 1 sentyabr 2022-ci il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

***Bildiriş***

"Naxçıvan Tac" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Gülcamal Tahirova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 706**